**2014-cü il üzrə Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin Etik Hesabatı**

Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 5 sentyabr tarixli 2421 nömrəli Sərəncamı ilə "Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı" təsdiq edildikdən sonra Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi tərəfindən planda nəzərdə tutulan tədbirlərin icrası məqsədi ilə müvafiq əmrlə illik iş planı təsdiq edilmiş və digər bir sıra mühüm işlər həyata keçirilmişdir.

Belə ki, Komitə daxilində 2014-ci ilin 06 və 24 oktyabr tarixlərində dövlət qulluqçuları üçün etik davranış qaydaları üzrə: peşəkarlıq və fərdi məsuliyyətin artırılması; insanların hüquq, azadlıq və qanuni maraqlarına, şərəf və ləyaqətinə hörmət; mədəni davranış; əmr, sərəncam və tapşırıqların yerinə yetirilməsi; korrupsiyanın qarşısının alınması mövzusunda təlimlər təşkil edilərək həyata keçirilmiş və gələcəkdə də bu və digər etik davranış qaydaları ilə bağlı təlim və treninqlərin mütəmadi olaraq keçirilməsi nəzərdə tutulmuşdur.

Dövlət qulluqçularından gözlənilən davranış barədə vətəndaşların məlumatlandırılması məqsədilə "Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsində qulluq keçən dövlət qulluqçularının etik davranış Qaydaları" Komitənin rəsmi internet saytında (www.azstand.gov.az) "Etik qaydalar" bölməsində yerləşdirilmişdir. Həmçinin Komitədə çalışan dövlət qulluqçuları tərəfindən etik davranış qaydaları pozulduqda vətəndaşların "963-Qaynar xətt" əlaqə mərkəzinə müraciət edə bilmələri barədə məlumat mütəmadi olaraq kütləvi informasiya vasitələrində verilir.

Cari il ərzində vətəndaşlardan Komitədə çalışan dövlət qulluqçuları tərəfindən etik davranış qaydalarının pozulması ilə əlaqədar şikayət daxil olmamış, onlar tərəfindən korrupsiya hüquqpozma və korrupsiyaya şərait yaradan

hüquqpozma hallarına yol verilməmişdir. Bundan başqa Komitədə çalışan dövlət qulluqçuları tərəfindən etik davranış qaydalarının pozulması halları aşkar edilməmiş və bu əsasla onlar barəsində intizam tənbeh tədbirləri tətbiq edilməmişdir.